# QİDA MƏHSULLARININ İZLƏNİLMƏSİNƏ DAİR QİYMƏTLƏNDİRMƏ VƏ MƏSLƏHƏT XİDMƏTLƏRİ ÜZRƏ QİYMƏT TƏLİMATI

| Hazırladı | Yoxladı | Yoxladı | Təsdiqlədi |
|---|---|---|---|
| Qida subyektlərinin qiymətləndirilməsi şöbəsinin böyük mütəxəssisi **Tural Aslanov** | Xidmətlərin təşkili departamentinin müdir müavini **Ziyabəddin Hüseynov** | Keyfiyyətə nəzarət departamentinin müdiri **Vüqar İsmayılzadə** | Keyfiyyəti İdarəetmə Sisteminin qrup lideri **Tamilla Əliyeva** |
| | | | |

## 1. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra - İnstitut) tərəfindən müəssisələrdə qida məhsullarının izlənilməsi sisteminin tətbiqinə dair məsləhət və ya mövcud sistemin qiymətləndirilməsi ilə bağlı göstərilən xidmətlərə dair əsas prinsipləri, fəaliyyət mərhələlərini və qiymət formalaşma meyarlarını müəyyən etməkdir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı
- "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VİQ nömrəli qanunu

## 3. TERMİNLƏR

- **Məhsulların izlənilməsi** - qida zəncirinin bütün mərhələlərində qida və yem məhsulunun, qida məhsulları əldə edilən heyvanların, yaxud qida və yem məhsullarına əlavə edilməsi nəzərdə tutulan maddələrin hərəkətinin izlənilməsi;
- **Məsləhət xidməti** - Müəssisədə qida məhsullarının izlənilməsi sisteminin tətbiqi üçün mütəxəssis dəstəyi;
- **Qiymətləndirmə** - Müəssisədə tətbiq edilmiş qida məhsullarının izlənilməsi sisteminin effektivliyinin, sənədlərin və real tətbiqlərin yoxlanılması;

## 4. CAVABDEHLƏR

- Xidmətlərin təşkili departamenti

## 5. TƏLİMATIN TƏSVİRİ

**5.1.** Qida məhsullarının izlənilməsi sisteminin qiymətləndirməsi və qurulmasına dair məsləhət xidmətİ üzrə qiymətin müəyyənləşdirilməsində sahibkarlıq subyektinin kateqoriyası (mikro, kiçik, orta, iri) əsas rol oynayan parametrdir.

**5.2.** AQTİ-KİS-F-135 nömrəli "Yerli müştəri üçün sorğu vərəqəsi"nə əsasən, müəssisənin işçi sayı nəzərə alınmaqla, sahibkarlıq subyektinin kateqoriyası müəyyən edilir və bu da **Mikro, Kiçik, Orta və İri Sahibkarlıq Subyektlərinin bölgüsü** cədvəlinə uyğun şəkildə təyin olunur.

**5.3.** Qida məhsullarının izlənilməsi sisteminin qiymətləndirilməsi və qurulmasına dair məsləhət fəaliyyətləri zamanı tələb edilən xidmət haqları **Qida məhsullarının izlənilməsi sisteminin qiymətləndirilməsi və qurulmasına dair məsləhət xidməti üzrə hesablama cədvəlində** qeyd olunmuşdur.

| MİKRO, KİÇİK, ORTA VƏ İRİ SAHİBKARLIQ SUBYEKTLƏRİNİN BÖLGÜSÜ | | |
|---|---|---|
| **№** | **Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları** | **Müəssisədə fəaliyyət göstərən işçi sayı (nəfərlə)** |
| 1 | Mikro sahibkar | 1 - 10 |
| 2 | Kiçik sahibkar | 11 - 50 |
| 3 | Orta sahibkar | 51 - 250 |
| 4 | İri sahibkar | 251 və ondan yuxarı |

Xidmət dəyərinin hesablanması müəssisədə fəaliyyət göstərən işçi sayına uyğun olaraq aşağıdakı cədvəldə müəyyən edilmiş sabit qiymət aralıqları əsasında aparılır.

| QİDA MƏHSULLARININ İZLƏNİLMƏSİ SİSTEMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QURULMASINA DAİR MƏSLƏHƏT XİDMƏTİ ÜZRƏ HESABLAMA CƏDVƏLİ | | | | | |
|---|---|---|---|---|---|
| **№** | **Xidmətin adı** | **Sahibkarlıq subyektinin kateqoriyası** | | | |
| | | **Mikro sahibkar (AZN-lə)** | **Kiçik sahibkar (AZN-lə)** | **Orta sahibkar (AZN-lə)** | **İri sahibkar (AZN-lə)** |
| 1 | Qida məhsullarının izlənilməsi sistemi üzrə məsləhət xidməti | 500.00 | 750.00 | 1000.00 | 1250.00 |
| 2 | Qida məhsullarının izlənilməsi sistemi üzrə qiymətləndirmə xidməti | 500.00 | 500.00 | 500.00 | 500.00 |

## DƏYİŞİKLİKLƏRİN QEYDİYYAT VƏRƏQİ

| **SƏNƏDİN ADI** | QİDA MƏHSULLARININ İZLƏNİLMƏSİNƏ DAİR QİYMƏTLƏNDİRMƏ VƏ MƏSLƏHƏT XİDMƏTLƏRİ ÜZRƏ QİYMƏT TƏLİMATI |
|---|---|
| **SƏNƏD №** | AQTİ-KİS-T-038 |

| Tarix | Dəyişiklik № | Səhifə № | Dəyişikliyin təsviri | İcra etdi | Təsdiq etdi |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |